# Azərbaycan Respublikasının Mərkəzi Bankı

## SƏRƏNCAM

**№ 10s**

**Bakı şəhəri** **"22" fevral 2021-ci il**

Mərkəzi Bank tərəfindən banklar arasında maliyyə vasitəçiliyində innovasiyaların tətbiqinin genişləndirilməsi, elektron bankçılıq xidmətlərinin inkişaf etdirilməsi, nağdsız ödəniş alətlərindən istifadənin artırılması məqsədi ilə 2013-cü ildən başlayaraq illik əsasda nominasiya müsabiqəsi keçirilir. Nominasiya müsabiqəsinin mükafatlandırma tədbiri Azərbaycan Banklar Assosiasiyası ilə birgə əməkdaşlıq çərçivəsində təşkil edilir.

Sözügedən müsabiqənin banklar arasında böyük marağa səbəb olmasını, onlar tərəfindən mətbuatda və xüsusilə sosial şəbəkələrdə aktiv təbliğ olunduğunu diqqətə alaraq tədbirin davam etdirilməsi nəzərdə tutulur.

Mərkəzi Bankda aparılan struktur və kadr dəyişiklikləri ilə əlaqədar rəhbər işçilər arasında vəzifə bölgüsünün aparılması nəzərə alınaraq, Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin 03.03.2014-cü il tarixli, 6s nömrəli Sərəncamı əsasında fəaliyyət göstərən Münsiflər Heyətinin tərkibində dəyişikliklərin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Münsiflər Heyətinin tərkibinin 7 (yeddi) nəfərdən ibarət olması müəyyən edilsin və aşağıdakı tərkibdə təsdiq olunsun:

**Münsiflər Heyətinin rəhbəri:**

F.Osmanov – Baş direktor

**Münsiflər Heyəti rəhbərinin müavini:**

K.Qurbanova – Ödəniş sistemləri və hesablaşmalar departamentinin direktoru

**Münsiflər Heyətinin üzvləri:**

R.Məlikova – Hüquq departamentinin direktoru;

S.Nəsirov – Statistika departamentinin direktoru;

R.Mahmudov – Ödəniş sistemləri və hesablaşmalar departamentinin

Milli Ödəniş Sisteminin inkişafı və nəzarəti şöbəsinin rəisi;

A.Ağayev – Beynəlxalq əməkdaşlıq və kommunikasiya departamentinin Kommunikasiya şöbəsinin rəisi;

Y.Abdulov – Azərbaycan Banklar Assosiasiyasının icraçı direktoru.

2. Azərbaycan Respublikası Mərkəzi Bankının sədrinin 03.03.2014-cü il tarixli, 6s nömrəli Sərəncamının 1-ci bəndi və 17.02.2017-ci il tarixli, 11s nömrəli Sərəncamı ləğv edilsin.

**Mərkəzi Bankın sədri** **Elman Rüstəmov**